

# “Biz bu torpaqların sahibiyik, buraya qayıtmışıq və burada əbədi yaşayacağıq”

***Otuz il ərzində bizim təbii sərvətlərimizi istismar edir, ağaclarımızı kəsirdilər – 60 min hektar ağac fondu, meşə fondu məhv edilib – çaylarımızı zəhərləyir, binalarımızı sökür, qızıl yataqlarımızı qanunsuz istismar edirdilər. Bu gün erməni vəhşiliyi haqqında dünyada kifayət qədər böyük məlumat var və biz bu məlumatı daha da genişləndirəcəyik.***

**Dövlət başçımızın “İstisu” sanatoriyasının təməlqoyma mərasimindəki çıxışından**
**Kəlbəcər, 26 iyun 2022-ci il**

Bu yaxınlarda telekanallarımızdan hansınasa qonaq qismində gəlmiş, əslən azərbaycanlı olan Fransa fotoqrafı Reza Deqati maraqlı bir fikir səsləndirdi: “Prezident İlham Əliyevin istənilən nitqi, çıxışı və ya müsahibəsi ağlı başında olan adamların dəfələrlə müraciət etdiyi, baxdığı, oxuduğu mənbəyə çevrilir”. Mən həmin fikirlə tam razılaşıram. Çünki cənab Prezidentin dəfələrlə müraciət etdiyim müsahibələri kifayət qədər çoxdur. Hətta, dövlət başçımızın elə ifadələri var ki, bir andaca yüz minlərin, milyonların ürəyində əminlik, arxayınlıq yaradır.

Məsələn, son zamanlar bir tərəfdən Ermənistan həyasızlığın apogeyinə qalxır, bir tərəfdən Fransa Cənubi Qafqazı yenidən barıt çəlləyinə döndərmək istəyir, bir tərəfdən İranın xəyanətkar addımları gündən-günə artır. Üstəlik, Rusiyadakı bəzi şovinist qüvvələr də dövlət siyasətinin əksinə olaraq, Azərbaycan haqqında hədyan və qarayaxmalar səsləndirirlər. İstər-istəməz yenidən hərbi əməliyyatların başlanacağı barədə təəssürat yaranır və çoxlarının yuxusu qaçırdı. Etiraf edim ki, elə mən də o gündə idim. Hörmətli oxucuya xatırladım ki, bu, qorxaqlıqdan deyil, bizim çox güclü ordumuz var. Sadəcə, müharibələr itkisiz olmur və bir də başladığımız möhtəşəm layihələrin başa çatmasının müddəti uzana bilər. Qərəz, cənab Prezident həmin narahatlığımızı bircə suala verdiyi cavabla tamamilə yox etdi. Söhbət dövlət başçımızın noyabrın 25-də ADA Universitetində “Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat” mövzusunda keçirilən beynəlxalq konfransda Şotlandiyadan olan enerji təhlükəsizliyi üzrə ekspert Con Robertsin sualını cavablandırmasından gedir. Sual belə idi : “Sizi gecə yatmağa qoymayan nədir?”

Dövlət başçımız bu gözlənilməz sualı elə cavablandırdı ki, həmin gündən sonra mən əvvəlki günlərə nisbətən minqat artıq rahat yatıram: “Mən gecə rahat yatıram və oyaq qalmıram. Gecə oyanmaq üçün mənə səbəb yoxdur. Xüsusən də indi, belə bir dinc şəraitdə. Çünki Azərbaycan iki ildən çoxdur ki, o işğalın ağırlığını öz üzərindən atıb. Eskalasiya riski yoxdur, çünki ola bilsin, siz eşitmisiniz ki, işğal zamanı Ermənistanın yüksək rütbəli rəsmiləri bizi “yeni ərazilər uğrunda yeni müharibə” ilə hədələyirdilər. Bu, hazırda cənab Paşinyanın həbs etdirdiyi Ermənistanın keçmiş müdafiə nazirinin kəlamıdır. Lakin həmin sözlər Azərbaycana açıq təhdid idi. Başqa çox yekəxana şərhlər də səsləndirildi ki, əgər müharibə başlasa, erməni tankları Bakının küçələrində olacaqlar. Əslində, bu lovğa şərhlər reallığa çevrildi. Erməni tankları Bakının küçələrinə gəlib çıxa bildi, amma hərbi parad üçün gətirdilər. İndi isə onlar Hərbi Qənimətlər Parkındadır. Beləliklə, bu cür möhtəşəm Qələbədən sonra, gecəni yatmaq üçün istifadə etməməyin səbəbi yoxdur”.

Məmnunluq gətirən faktdır ki, dövlət başçımız milyonlarla soydaşımıza Qələbə sevinci yaşatmış Azərbaycan Ordusunun daha da qüdrətləndirilməsi üçün bəlkə də hər gün yeni addımlar atır, daha mükəmməl qərarlar qəbul edir. Cənab Prezident, hər il olduğu kimi, bu il də Azərbaycan Silahlı Qüvvələrini peşə bayramı münasibətilə bilavasitə hərbçilərimizin qarşısında çıxış etməklə yaddaşlara yazılmışdı. Özü də işğaldan azad edilmiş Kəlbəcər rayonunda.

Bu gün iyunun 26-nı yada salmağımız təsadüfi deyil. Xahiş edirəm, izahat kimi qəbul edilməsin, sadəcə, faktı yada salıram. 1988-ci ildə Ermənistandan qaçqın düşən soydaşımız Adıgözəl Məmmədov zəng edərək, cənab Prezidentin “Biz burada əbədi yaşayacağıq!” – deyimini nə zaman, harada işlətdiyini öyrənmək istədi. Və əlavə etdi ki, bu tarixi Qələbəmiz haqqında yazı hazırlayan türk tələbə öyrənmək istəyir.

Mənbəni onlara bildirdim və dövlət başçımızın həmin çıxışını bir də oxudum: “Mənim iyunun 26-da bu rayonlara səfərimin əsas səbəbi bu gün – Silahlı Qüvvələr Günündə hərbçilərlə bir yerdə olmağımdır. Mən bu gün hərbçilərlə – yeni yaradılmış komando qüvvələri ilə Ordu Gününü Kəlbəcərdə qeyd etdim. Hesab edirəm ki, bunun çox böyük rəmzi mənası var. Hərbi xidmət nöqteyi-nəzərdən bu bölgə – Kəlbəcər – Laçın zonası həm iqlim, həm relyef, həm də təbiət baxımından bəlkə də ən çətin bölgədir. Ona görə bu gün mən burada olmalı idim, müzəffər ordumuzla bərabər olmalı idim, hər zaman olduğu kimi”.

Bəli, hər zaman olduğu kimi. Cənab Prezident hər zaman ordumuzun yanındadır. Ancaq təkcə ordunun yox. O, qurub-yaradan hər kəsin yanındadır: “Biz qurub-yaradan xalqıq. Biz gəlmişik, tamamilə dağılmış 10 min kvadrat kilometr ərazidə yeni həyat qururuq. Artıq yeni həyatın təzahürləri görünməkdədir. Azad edilmiş şəhərlərimizdə, kəndlərimizdə artıq geniş inşaat işləri gedir… Bütün bu işlərin həcmi bir daha xalqımızın böyüklüyünü göstərir. Onu göstərir ki, bir daha demək istəyirəm, biz bu torpaqların sahibiyik, buraya qayıtmışıq və burada əbədi yaşayacağıq. Qarabağ Azərbaycandır!”

**İttifaq MİRZƏBƏYLİ,**
**“Xalq qəzeti”**